# Yerli və Regional Hakimiyyətlər Konqresi

23-cü Sessiya
16 -18 oktyabr 2012, Strasburq

## *Azərbaycanda yerli və regional demokratiya*

345 (2012) *saylı Qətnamə*[1]

1. Konqres qeyd edir ki,

*a.* Azərbaycan Avropa Şurasına 2001-ci il yanvar ayında üzv olmuşdur və beləliklə, insan haqqları, demokratiya və qanunun aliliyi kimi əsas Avropa dəyərlərinə və standartlarına riayət edilməsini təmin etməklə dünyada vahid demokratik və hüquqi məkanın yaradılmasına töhfə verməyi öhdəsinə götürmüşdür;

*b.* milli qanunvericiliyin səmərəli şəkildə həyata keçirilməsini təmin etmək məqsədilə onun yerli özünüidarəetmə prinsipinə intqrasiya etməyi, xüsusilə də, müvafiq maliyyə ressursları ilə yerli kollektivlərə səlahiyyətlər transfer etməyi və Xartiyada nəzərdə tutulan yerli özünüidarəetmə orqanlarının yaranmasını təmin edən subsidiarlıq prinsipini tam həyata keçirməyi öhdəsinə götürərək, Azərbaycan Yerli özünidarəetmə haqqında Xartiyanı (bundan sonra "Xartiya" adlandırılacaq)15 aprel 2002-ci ildə ratifikasiya etmiş və bu Xartiya 1 avqust 2002-ci ildən qüvvəyə minmişdir;

2. Azərbaycanda yerli və regional demokratiya haqqında əvvəlki 126 (2003) saylı Tövsiyyəsi və 151 (2003) saylı Qətnaməsi.

3. Konqres yerli özünüidarəetmə orqanlarının üç səviyyəli milli assosiasiyalarının təşkilini alqışlayır, ancaq arzu edir ki, bu assosiasiyalar bələdiyyələrin maraqlarını təmsil etməkdə daha fəal rol oynasınlar.

4. Bundan əlavə, o qeyd edir ki, 2003-cü ildə milli hakimiyyət orqanları ilə bağlı ünvanlanmış tövsiyyələrin əksəriyyəti həyata keçirilməmişdir; onların yaxın gələcəkdə nəzərə alınmasına dair təqvim planı tərtib edilmədiyindən bu tövsiyyələr hələ də aktual olaraq qalır.

5. O, tövsiyyələrinin təkrar olunduğu izahedici memoranduma istinad edir və Azərbaycan tərəfindən ratifikasiya edilmiş Xartiyanın müddəalarının əksəriyyətinə riayət edilməməsindən ciddi narahatlığını bildirir;

6. Bu qeydləri nəzərə alaraq Konqres:

*a.* Burosunu, yerli özünüidarəetmə orqanlarının naziri qismində Azərbaycan Ədliyyə nazirini Konqresin oktyabr 2013-cü il tarixli sessiyasına dəvət eməyə və Azərbaycan hakimiyyət dairələri tərəfindən nəzərdə tutulan evolyusiyaları müzakirə etməyə dəvət edir;

*b.* Monitorinq Komitəsini dəvət edir ki,

---

[1] *17 oktyabr 2012-ci ildə Konqresdə müzakirə edilmiş və qəbul edilmişdir, 2-ci səs vermə (bax:* CG(23)12 izahedici memorandum), məruzəçilər: J. Vienen, Niderland (L, EPP/CD) və G. Mosler- Törnström, Avstriya (R, SOC).

i. Milli, regional və yerli hakimiyyət orqanları və yerli demokratiya sahəsində aidiyyatlı qeyri –hökumət təşkilatları ilə əməkdaşlıq çərçivəsində Xartiyanın həyata keçirilməsinə dair Bakıda təcili seminar təşkil etsin;

ii. Son qəbul edilmiş Tövsiyyələri nəzərə almaqla yerli və regional demokratianın vəziyyətini qiymətləndirmək məqsədilə orta müddətli monitorinq səfəri həyata keçirsin və bu müddət ərzində görülmüş proqresi qiymətləndirsin.